# Azərbaycan ədliyyəsi yüz illik yubileyini böyük uğurlarla qarşılayır

**❒ Bugünkü gənc müstəqil Azərbaycan Respublikasında cəmiyyət həyatının istənilən sahəsindəki tərəqqiyə nəzər salarkən, mütləq həmin uğurların təməlində ulu öndər Heydər Əliyevin siyasi kursunun prinsiplərini görürük. İslahatlar aparılmış, müasirləşdirilmiş və dünya təcrübəsi əsasında yenidən qurulmuş ədliyyə sistemimiz də məhz öz inkişafına Heydər Əliyev siyasi müdrikliyi sayəsində başlamışdır.**

Doğrudur, biz bu il Azərbaycan ədliyyəsinin 100 illiyini qeyd edəcəyik. Bu, bir tarixi faktdır. Ancaq o da faktdır ki, bizim ədliyyə sistemimiz həm ötən əsrin 70-80-ci illərində, həm də ulu öndərin siyasi hakimiyyətə qayıtdığı 1993-cü ilin yayından 2003-cü ilin payızına qədər məhz Heydər Əliyevin qayğısı və diqqəti sayəsində inkişaf etmişdir.

Azərbaycan ədliyyəsinin tarixinə nəzər salarkən həddən artıq maraqlı məqamlarla tanış oluruq. Məsələn, elektron resurslarda oxuyuruq ki, Azərbaycanın dövlət müstəqilliyinin elan olunduğu tarixi gündə -- 28 may 1918-ci ildə Ədliyyə Nazirliyi də təsis edilmiş, dövrünün nüfuzlu ictimai-siyasi xadimi Xəlil bəy Xasməmmədov bu quruma rəhbər təyin olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının qərarı ilə 1918-ci il noyabrın 14-də Azərbaycan məhkəmə palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir.

Ötən əsrin doxsanıncı illərinin əvvəllərində -- Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsindən sonra milli ədliyyə sistemimiz də digər sahələr kimi, qara günlərini yaşamış, ulu öndərin siyasi hakimiyyətə qayıdışından sonra isə cəmiyyət həyatının bütün sahələrində baş verən yeniləşmə, inkişaf və tərəqqi tendensiyaları bizim sahədə də özünü göstərmişdir. Belə ki, ulu öndərin dövründə qəbul edilmiş və təcrübədə sınanmış qaydaların nə dərəcədə effektiv olması özünü sübut etmişdi.

2003-cü ilin payızından sonra bu tendensiya daha geniş miqyasda davam etdirilmiş, Azərbaycan Prezidenti İlham Əliyevin 17 avqust 2006-cı il tarixdə imzaladığı "Ədliyyə orqanlarının inkişafı haqqında" fərmanla aparılan islahatlar çərçivəsində Ədliyyə Nazirliyinin funksiya və səlahiyyətləri dəqiq müəyyən edilmiş, onun cəmiyyətdə rolu və əhəmiyyəti daha da artmış, nazirliyin üzərinə məsul vəzifələr qoyulmuş, yeni strukturqurumlar yaradılmışdır.

Bir faktı da qeyd edək ki, cənab Prezidentin ölkəyə rəhbərlik etdiyi dövrdə "Məhkəmə-Hüquq Şurası haqqında", "Məhkəmələr və hakimlər haqqında" qanunlara bir sıra mütərəqqi əlavə və dəyişikliklər edilmiş, yeni dövrün reallıqları ilə əsaslandırılan bir sıra qanunvericilik aktları qəbul olunmuşdur. Ölkənin bütün ədliyyə işçiləri məmnundur ki, Prezident İlham Əliyev bölgələrin inkişafı tədbirlərinin davamı kimi 19 yanvar 2006-cı il tarixdə Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Qanunun tətbiq edilməsi barədə fərman imzalamışdır.

Hörmətli nazirimiz Fikrət Məmmədovun qeyd etdiyi kimi, regionların sosial-iqtisadi inkişafının yeni keyfiyyət mərhələsi ilə şərtlənən bu fərman dövlət başçısının məhkəmə hakimiyyətinin cəmiyyətdə nüfuzlu təsisat kimi təşəkkül tapmasında maraqlı olduğunu bir daha nümayiş etdirmişdir. Məhz bu fərman əsasında bölgələrdə yeni apelyasiya və inzibati-iqtisadi məhkəmələr yaradıldı.

Qeyd edək ki, həmin fərman işıq üzü görənə qədər respublikamızda yalnız bir Apelyasiya Məhkəməsinin fəaliyyət göstərməsi, ilk növbədə, bölgələrdə yaşayan insanlar üçün ciddi problemlər doğurur, onların qanuni mənafelərinin yüksək səviyyədə təminatına əngəllər yaradırdı.

Xatırladaq ki, bu mühüm qərarın icrasından əvvəl vətəndaşlar birinci instansiya məhkəmələrinin qərarlarından verdikləri apelyasiya şikayəti ilə əlaqədar uzaq məsafə qət edərək Bakı şəhərinə gəlməyə, əksər hallarda prosesin müəyyən səbəblərdən təxirə salınması ilə bağlı geriyə dönməyə məcbur olurdular. Apelyasiya şikayətlərinin çoxluğu bir çox hallarda ədalətli məhkəmə araşdırmasının aparılmasını və iş üzrə yekun qərar vermək imkanlarını da məhdudlaşdırırdı. Regionlarda apelyasiya məhkəmələrinin fəaliyyətə başlaması bu sahədə ciddi dönüş yaratmışdır.

Bundan başqa, nazirliyin rəsmi materiallarında oxuyuruq ki, hakim kadrların ən mütərəqqi və şəffaf qaydalara uyğun olaraq keçirilmiş imtahan şəffafliq və obyektivliklə müşayiət edilmişdir. Həmin imtahanın hər bir mərhələsi, o cümlədən sualların seçimi və cavabların yoxlanılıb elan edilməsi bilavasitə imtahan keçirilən zalda, namizədlərin, habelə 40-dan çox xarici təşkilat və yerli QHT təmsilçiləri, televiziya və mətbuat nümayəndələri qarşısında həyata keçirilmişdir.

Biz – müasir ədliyyə işçiləri fəxr edirik ki, dövlətimiz qüdrətləndikcə, Azərbaycan ədliyyəsi də özünün yeni inkişaf tarixini yaşayır. Belə ki, dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da ədliyyə sistemi ən müasir elmi-texniki nailiyyətlərdən kifayət qədər bəhrələnir. Bəzi faktlara diqqət yetirək. Məsələn, ölkədə ədalət mühakiməsinin həyata keçirilməsində şəffaflığın, insan və vətəndaş hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmin edilməsi məqsədilə Azərbaycan Prezidentinin 2014-cü il 13 fevral tarixli sərəncamına əsasən "Elektron məhkəmə" informasiya sisteminin yaradılması üzrə qısa müddətdə irihəcmli işlər görülüb. Yaxud, məhkəmə sisteminin vahid veb-portalı, proses iştirakçılarının "Şəxsi kabineti", məhkəmə rüsumlarının elektron ödəmə sistemi və vahid reyestri, məhkəmə qərarlarının vahid bazası yaradılıb, hakimlərin elektron imzası, məhkəmə işlərinin elektron idarəetmə sistemi, məhkəmə qərarlarının elektron icra sistemi, məhkəmə işlərinin hakimlər arasında avtomatlaşdırılan qaydada bölgüsünə dair sistem formalaşdırılıb, "Elektron əmr icraatı" sistemi istifadəyə verilib.

Ancaq dünya təcrübəsində belə bir ifadə də var ki, məhkəmələrin müvafiq maddi-texniki bazası, rahat iş otaqları yoxdursa, ən mükəmməl qanunvericilik bazası, müasir texniki vasitələr və peşəkar hakimlər kontingenti olsa belə, səmərəli fəaliyyətdən söhbət gedə bilməz. Məhz bunu nəzərə alan dövlət başçımızın tövsiyəsi ilə ölkədə yeni məhkəmə binaları tikilib istifadəyə verilir. Hamının yadındadır, möhtərəm Prezidentin iştirakı ilə Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin yeni müasir binasının açılışı bizim üçün əlamətdar hadisə idi. Daha əlamətdar məqamlardan biri də odur ki, məhkəmə infrastrukturunun müasirləşdirilməsi paytaxtla yanaşı, respublikamızın müxtəlif bölgələrində də davam etdirilərək, bu il daha iki rayonda -- İmişli və Qəbələdə yeni məhkəmə binaları inşa olunaraq istifadəyə verilmişdir.

Bu zaman xüsusilə vurğulamalı olduğumuz fakt odur ki, yeni məhkəmə binalarında insanlara yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, məhkəmə proseslərinin şəffaf, müasir informasiya-kommunikasiya texnologiyaları vasitəsilə həyata keçirilməsi, habelə vətəndaşlarla hakimlər arasında qeyri-prosessual münasibətlərin qarşısının alınması məqsədilə hər cür şərait yaradılmışdır.

Dövlət başçımızın bu sahəyə diqqətinin miqyasını, ölçüsünü sübut edən daha bir məqamı da yada salaq. Prezident İlham Əliyev ədliyyə və məhkəmə işçiləri ilə keçirdiyi müşavirədə demişdir: "Azərbaycanda məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi prosesi uğurla gedir. Məhkəmə-Hüquq Şurasının fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Artıq on ildir ki, şura fəaliyyət göstərir. Bu sahədə aparılan islahatlar, əldə edilmiş nailiyyətlər Azərbaycanda məhkəmə-hüquq sisteminin möhkəmlənməsinə, şəffaflığın artırılmasına gətirib çıxarmışdır".

Xatırladaq ki, tarixin bütün dövrlərində Şərq ölkələrində məhkəmələrin və hakimlərin fəaliyyətində şəffaflığın bərqərar edilmədiyi barədə mülahizələr həmişə səsləndirilib. Azərbaycan ilk ölkələrdəndir ki, həmin halların tamamilə aradan qaldırılması üçün lazım olan bütün addımları atır. Məhkəmə sistemində şəffaflığın və ədalətin tam bərqərar olmasının ümumi demokratik inkişafımıza müsbət təsir göstərdiyini qeyd edən Prezident İlham Əliyev demişdir: "Hazırda bütün yeni tikilmiş məhkəmə komplekslərində "Elektron məhkəmə" informasiya sistemi quraşdırılır və bu da çox ciddi islahatdır. Çünki məhkəmələrin qərarları ədalətli olmalıdır... Ədalətli qərarlar həm insanlarda dövlətə inamı artırır, eyni zamanda, həyatımızı tənzimləyir. Məhkəmə sistemində qəbul edilmiş qərarlar, aparılan islahatlar, bax, bu məqsədi güdür".

Rəsmi materiallarda göstərildiyi kimi, ölkədə hakim korpusunun mənəvi cəhətdən saf, yüksək peşə hazırlıqlı hüquqşünaslar hesabına komplektləşdirilməsi, hakimlərin seçimində korrupsiya və digər neqativ halların qarşısının alınması məqsədilə nüfuzlu Avropa strukturları tərəfindən örnək kimi qiymətləndirilən yeni təcrübə -- çoxmərhələli seçim proseduru yaradılmışdır ki, bu təcrübənin tətbiqi nəticəsində hakim korpusu 60 faiz təzələnmişdir.

Azərbaycan ədliyyəsinin 100 illiyi qarşısında qələmə aldığımız bu sətirlərdə fəxrlə yada salmaq istəyirik ki, bizim nazirlik mötəbər beynəlxalq tədbirlərdə ölkəmizi layiqincə təmsil edir. Böyük Azadlıqlar Xartiyasının 800 illiyinə həsr olunmuş Qlobal Hüquq Sammitində, Beynəlxalq Prokurorlar Assosiasiyasının illik yığıncaqlarında, Avropa Ümumi Hüquq Təşkilatının toplantısında və digər tədbirlərdə Azərbaycan Ədliyyə Nazirliyi fəal iştirak etmişdir. Biz fəxr edirik ki, Qətərin paytaxtı Doha şəhərində keçirilmiş BMT-nin cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi üzrə 13-cü Konqresində Azərbaycanın Ədliyyə Nazirliyi də fəal təmsil olunmuş, dünyanın 190-dan çox ölkəsindən 3 min yüksək səviyyəli və rəhbər şəxslərin iştirak etdiyi bu mötəbər tədbirdə ədliyyə nazirimiz qurumun vitse-prezidentlərindən biri seçilmişdir.

Bundan başqa, beynəlxalq əməkdaşlığa mühüm önəm verilərək, Azərbaycan 140 ölkəni birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının təşkilatçılarından biri kimi onun işində daim fəal iştirak edir, respublikamızın ədliyyə naziri qurumun vitse-prezidentidir.

Sonda onu da qeyd edək ki, bu gün Azərbaycan ədliyyəsi həm hüquqi, həm də maddi-texniki bazanın mükəmməlliyinə görə postsovet məkanının ən inkişaf etmiş ədliyyələrindən biridir. Ölkə ictimaiyyətini, nazirliyimizi və dövlətimizi əmin edirik ki, qarşımızda duran bütün vəzifələr məhz cənab Prezidentin tövsiyə etdiyi şəkildə icra olunacaq. Avropanın ən mükəmməl qanunlarından biri kimi qəbul edilən Azərbaycan qanunlarına daim əməl edəcək, nazirliyimizin və dövlətimizin nüfuzunu həmişə uca tutacağıq.



***Hümbət SƏLİMOV,***
***Balakən Rayon Məhkəməsinin sədri***